# Əlifba Bayramı

Böyük Pirəli kənd tam orta məktəbində əlifba bayramı keçirilmişdir. Tədbirdə rayon təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova, şöbənin ibtidai siniflər üzrə metodisti Məlahət Hüseynova, məktəb kollektivi, Böyük Pirəli kənd inzibati ərazisi üzrə nümayəndə, kənd bələdiyyəsinin sədri, valideynlər iştirak etmişlər.

Bayram şənliyinin açılışında məktəbin direktoru Qədim İsgəndərov, təhsil şöbəsi metodkabinetinin müdiri Arifə Bayramova çıxış edərək şagirdləri təbrik etmiş, son illər məktəbdə belə tədbirlərin keçirilməsinin ənənəyə çevrilməsindən və bu tədbirlərin şagirdlərin təhsili və tərbiyəsində əhəmiyyətindən danışmışlar.

Tədbirin hazırlanmasında xüsusi rolu olan birincilərin sinif rəhbəri Fəxrəndə Əhmədovaya təhsil şöbəsi və məktəb rəhbərliyi tərəfindən xüsusi təşəkkur edilmişdir.

Birincilər hazırladıqları səhnəcikləri göstərməklə yanaşı məktəbə, doğma vətənimizə və anamıza həsr edilmiş şeirlər söyləmiş, rəqslər nümayiş etdirmişlər.

Tədbir iiştirakçıların rəğbətinə səbəb olmuşdur.

**N. ATAKİŞİYEV.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**12 may:** Bəstəkar, pedaqoq, xalq artisti, SSRİ Dövlət mükafatı laureatı **Səid Rüstəmov** (1907—1983) anadan olmuşdur. Yaradıcılığı musiqi folkloru ilə sıx bağlı idi. Notla çalan ilk ansambl yaradıb.

**13 may:** Xalq yazıçısı Elcin 1943-cü ildə anadan olmuşdur.

**14 may:** Görkəmli həkim, akademik, dövlət xadimi **Vəli Axundov** (1916—1986) anadan olmuşdur. Müxtəlif rəhbər vəzifələrdə işləyib. Səhiyyə naziri, Nazirlər sovetinin sədri, 10 il Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifələrində çalışıb.

1805-ci ildə Qarabağ xanlığının taleyində faciəli səhifə olan **Kürəkcay müqaviləsi** imzalanıb. Müqavilə İbrahim xanla Zaqafqaziyadakı rus ordusunun komandiri R.D.Sisianov tərəfindən imzalanmışdır. Bu müqaviləyə əsasən Qarabağ Rusiyanın himayəsinə keçmişdir. İbrahimxəlil xan bu müqavilədən heç nə qazanmamışdır. Mayor Lisaneviçin dəstəsi 1806 ilin yayında Şuşa yaxınlığında İbrahimxəlil xanı öz çadırında yaxın qohumları ilə birlikdə qətlə yetirmişdir. 1822-ci ildə isə Qarabağ xanlığının ləğv olunması ilə bu müqavilə qüvvəsini itirmişdir.

**15 may:** Bəstəkar, SSRİ xalq artisti **Rauf Hacıyev** (1912—1995) anadan olmuşdur. Azərbaycan Bəstəkarlar İttifaqının birinci katibi, mədəniyyət naziri, filarmoniyanın direktoru vəzifələrində işləmişdir. Müxtəlif janrlı musiqi əsərləri yazmış, kinofilmlərə musiqi bəstələmişdir.

Fransız fiziki **Pyer Kuri** (1859—1906) anadan olmuşdur. Əsas tədqiqatları kristallar fizikasına, maqnetizmə, radioaktivliyə aid olmuşdur. Qardaşları Pol İan Kuri və Skladovskaya Kuri ilə birlikdə radioaktivliyi öyrənmiş, poloniumu və radiumu kəşf etmişdir.

**16 may:** Tibb elmləri doktoru, əməkdar həkim, səhiyyə əlaçısı **Kubra Fərəcova** (1907—1988) anadan olmuşdur. Xalq səhiyyə komissarının müavini, səhiyyə naziri və başqa vəzifələrdə işləmişdir. Böyük Vətən müharibəsi iştirakçısı idi. Tədqiqatları əsasən uşaqların fiziki inkişafına, ana və uşaqların mühafizəsinə həsr olunmuşdur.

**17 may:** Yazıcı, dramaturq **Əbdürrəhimbəy Haqverdiyev** (1870—1933) Şuşada anadan olmuşdur. Peterburqda Yol Mühəndisliyi İnstituna daxil olmuş, eyni vaxtda azad müdavim kimi Peteburq Universitetinin şərq fakültəsində oxuyub. İlk dram əsərlərini («Yeyəsən qaz ətini, görəsən ləzətini», «Dağılan tifaq») 1892—1896-cı illərdə yazıb. «Leyli və Məcnun» operasının ilk tamaşasına dirijorluq etmişdir. Dövlət dumasına deputat seçilib. Bir sıra dram və nəsir əsərləri, ədəbi-tənqidi məqalələri var.

Erməni silahlı qüvvələri 1992-ci ildə **Lacın rayonunu** işğal ediblər.

**18 may:** Görkəmli fars və tacik şairi, riyaziyyatçı və filasov **Ömər Xəyyam** (1048—1112) anadan olmuşdur. Rubailərinin əsas motivini şəxsiyyət azadlığı, haqsızlığa qarşı mübarizə, ədalətə çağırış ruhu təşkil edir.

Görkəmli cərrah, akademik, əməkdar elm xadimi, SSRİ Dövlət mükafatı laureatı **Mirməmməd Cavadzadə** (1927—2008) anadan olub. Tədqiqatları əsasən urologiyanın aktual problemlərinə həsr edilib. Keçmiş SSRİ-də ilk və yeganə ixtisaslaşmış urologiya klinikası açılmasının təşəbbüscüsü və təşkilatçısı olmuşdur.

Müasir qazax ədəbiyyatının nümayəndəsi **Oljas Süleymenov** 1956-cı ildə dünyaya gəlmişdir.

# Elan

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 05 fevral 1999-cu il tarixdə 03 saylı qərarla Nic kənd sakini Əzizov Adil Siyah oğlu və ailə üzvlərinin adına verilmiş JN: 0066 nömrəli (kodu 40600068) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Bum kənd sakini Qaragözov Zakir Bəkir oğluna və ailə üzvlərinin adına 25 iyun 1998-ci il tarixli 11 saylı qərarla verilmiş JN-583A №-li (kodu 40800038) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən Qəbələ şəhər sakini Ədilov Əbubəkir Qurban oğluna və ailə üzvlərinin adına 26 fevral 2001-ci il tarixli 03 saylı qərarla verilmiş JN-190F №-li (kod 40601004) və JN-190H №-li (kod 40601004) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamələr** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi Qızıl Aypara Cəmiyyətinin rayon bölməsinin sədri Sədaqət Bayramovaya, qardaşı

**SİYAVUŞ BAYRAMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Təhsil şöbəsinin kollektivi icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovaya, qardaşı

**VÜQAR SƏLİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

---

Qəbələ Rayon Təhsil Şöbəsinin kollektivi Təranə Səlimovaya, həyat yoldaşı

**VÜQAR SƏLİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ İncəsənət məktəbinin kollektivi rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovaya və məktəbin müəllimi Rəqsanə Osmanovaya, əziziləri

**VÜQAR SƏLİMOVUN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

---

Gigiyena və Epidemiologiya mərkəzinin kollektivi rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovaya, qardaşı

**VÜQAR SƏLİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ rayon mədəniyyət və turizm şöbəsinin kollektivi iş yoldaşları

**VÜQAR SƏLİMOVUN**

vaxtsız vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları Natiq Rüstəmova atası

**ŞABAN RÜSTƏMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

---

Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları Azər İsazadəyə, dayısı

**SİYAVUŞ BAYRAMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Qəbələ Rayon Bölməsinin kollektivi bölmənin sədri Sədaqət Bayramovaya, qardaşı

**SİYAVUŞ BAYRAMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ şəhər 2 saylı tam orta məktəbin kollektivi rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovaya və məktəbin direktoru Təranə Səlimovaya, əzizləri

**VÜQAR SƏLİMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ incəsənət məktəbinin kollektivi iş yoldaşları Taleə Əfəndiyevaya, qardaşı

**ELXANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Böyük Pirəli kənd tam orta məktəbinin kollektivi iş yoldaşları Şakir Ağababayevə, anası

**ZƏMİLƏ RİZVAN QIZININ**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir və kədərləndiyini bildirir.

---

«Qəbələ» qəzetinin kollektivi Arifə və Sədaqət Bayramovalara, qardaşları

**SİYAVUŞ BAYRAMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

DİXİHİ Qəbələ Rayon Komitəsinin sədri Fərman Hacıyev Bayramovlar ailəsinə, əzizləri

**SİYAVUŞ BAYRAMOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

# Oxucuların nəzərinə!

## «Qəbələ» qəzetinə

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışına başlanmışdır.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydədn keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.